**Qərənfil məşəlləri**

İnsanlar, bir anlıq ayaq saxlayın
Şəhid olanların məzarı üstə.
Elə bil, dil açıb deyir, ağlayın,
Qərənfil məşəli dəstəbədəstə.

Ürək susa bilmir, istəyir dinə,
Necə vəfasızmış ömrün illəri.
Bu nakam cavanlar sevgilisinə
Hədiyyə edərmiş qərənfilləri.

Həmişə günəşlə açılmır səhər,
Həyatın yolları şaxtaymış, qarmış.
Nə olsun dili yox, bu qərənfillər,
Bəzən küsənləri barışdırarmış.

Elə bil, onlar da şəhid olublar,
Məzarlar üsstünə səpələniblər,
Yox, yox, sanmayın ki, tezcə solublar,
Sanki dənizdirlər, ləpəniblər.

Çevrilir hər biri bir an içində
Qəmli bir nəğməyə, həzin bir şeirə.
Sanki günəşdilər duman içində,
Qərənfil yağışı yağıb bu yerdə.

Dinləyin sözümü, ellər, ay ellər,
Hər biri qəlbimdə necə səsləşib.
Bu adi çiçəklər, bu qərənfillər,
Məzarlar üstündə müqəddəsləşib.

Mütəllibov T. Qərənfil məşəlləri : şeir // Azərbaycan. - 2010. - 17 yanvar. - N 12. - S. 5.